***Elçin VƏLİYEV*** *

# 2009-2013-CÜ İLLƏRDƏ "AZƏRBAYCAN RESPUBLİKASI REGİONLARININ SOSİAL-İQTİSADİ İNKİŞAFI DÖVLƏT PROQRAMI"NIN HƏYATA KEÇİRİLMƏSİ ÇƏRÇİVƏSİNDƏ ŞƏKİ BÖLGƏSİNİN İQTİSADİ İNKİŞAFINA DAİR

**Açar sözlər:** Şəki bölgəsi, Dövlət proqramı, kənd təsərrüfatı, regionların inkişafı, sənaye, aqrar sektor

**Key words:** Sheki region, Government program, agriculture, regional development, industry, agricultural sector

**Ключевые слова:** Шекинский регион, Государственная программа, сельское хозяйство, развития регионов, промышленность, аграрный сектор

[redacted] etdirdiyi iqtisadi inkişaf strategiyasının gerçəkləşdirilməsi nəticəsində Azərbaycan Respublikası dünyanın sürətlə inkişaf edən ölkələrindən birinə çevrilmişdir. 2003-2013-cü illər ərzində ölkə iqtisadiyyatı 3,4 dəfə artmış, qeyri-neft sektorunun dinamik inkişafı təmin edilmiş, 2003-cü ildə 1,5 milyard dollar olan dövlət büdcəsi 2013-cü ildə 25 milyard dollara çatdırılmışdır. 2005-2009-cu illərdə Azərbaycan iqtisadi inkişaf tempinə

* **Vəliyev Elçin** - AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun dissertantı

görə dünyada lider dövlət olmuş, 2009-cu ildə Azərbaycan iqtisadiyyatında 9 faiz artım qeydə alınmış, son 8 ildə isə qeyri-neft sektoru 2 dəfə artmışdır [**8**, 209].

2003-cü ildən keçən müddətdə ölkənin sosial-iqtisadi inkişafının sürətləndirilməsi məqsədilə qəbul edilmiş çoxsaylı dövlət proqramlarının içərisində 2004-cü il 11 fevral, 2009-cu il 14 aprel və 2014-cü il 27 fevral tarixli "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nı xüsusi olaraq qeyd etmək lazımdır. Bu proqramlarda bölgələrdə infrastrukturun yaradılması, yeni emal və istehsal müəssisələrinin, sosial obyektlərin yaradılması, əhalinin həyat səviyyəsinin ...



bütün sahələrində dinamik artım müşahidə edilmiş, o cümlədən sənaye istehsalı 2,5 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 25,2 faiz, əhalinin gəlirləri 4 dəfə artmışdır [**3**].

"Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı"ndan irəli gələn məsələlər bütün regionlarda olduğu kimi Şəkidə də uğurla yerinə yetirilməkdədir. "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın 2004-cu il 11 fevral tarixli ilk mərhələsində bu istiqamətdə həyata keçirilmiş tədbirlərlə yeni inkişaf mərhələsinə qədəm qoymuş Şəki bölgəsinin daxili həyatının ayrı-ayrı sahələrinə ən müasir texnologiyalar tətbiq ...

kəmləndirilməsi, rayonda tikinti materialları yataqlarının axtarışı və kəşfiyyatı işlərinin aparılması, yeraltı su mənbələrinin axtarışı, yol kənarlarının yaşıllaşdırılması və meşə mühafizə zolaqlarının salınması, kənd-



Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyinin və Agentlik çərçivəsində icrası təmin olunan layihələrin vəsaiti hesabına Şəki rayonu üzrə heyvandarlığı inkişaf etdirmək

323901 baş xırdabuynuzlu mal miqdarında olmuşdu [7, 295]. Rayonda fermerlərə 50 güzəştli qiymətlərlə 12 baş 21600 manat dəyərində damazlıq heyvanlar satılmışdır. 2014-cü ilin əvvəllərinə doğru, yəni haqqında bəhs etdiyimiz "Proqramın" başa çatdığı zaman Şəki rayonunda 88488 baş iribuynuzlu, o cümlədən 44531 baş ana mal, 385643 baş xırda buynuzlu heyvanlar bəslənilirdi. Regionda arıçılığın inkişafı da diqqət mərkəzində saxlanılır. 2014-cü ilin yanvarına dair məlumatlara əsasən, rayonun 313 arıçılıq təsərrüfatında 4890 arı ailəsi bəslənilirdi. Mal-qaranın cins tərkibinin yaxşılaşdırılması məqsədilə süni mayalanma texnikləri tərəfindən 3034 baş inək, camış və düyə mayalandırılmış və 1574 baş sağlam bala alınmışdı [9, 482-483].

Azərbaycanda meyvəçiliyin inkişafına da həmişə xüsusi diqqət

təsərrüfatı məhsulunun ümumi həcmi [illegible]244,6 milyon manat olmuş, bu





rəqəm Şəki-Zaqatala iqtisadi rayonunda 475,5 milyon manat, onun da Şəki rayonunun payına düşən hissəsi 160,1 milyon manat olmuşdu [13, 9]. Müqayisə apardıqda məlum olur ki, 2009-2013-cü illərdə Şəki rayonu üzrə ümumi kənd təsərrüfatı məhsulunun həcmi 120 milyon manatdan artaraq 160,1 milyon manat təşkil etmişdi.

2009-cu il 14 aprel tarixli "Xüsusi iqtisadi zonalar haqqında" qanun ölkədə sənayeləşmə prosesinin sürətlənməsinə təkan verdi. Həmin qanunun icrası çərçivəsində Dövlət proqramının həyata keçirilməsinin ikinci mərhələsində kifayət qədər böyük iş görülmüşdür. Nəticə olaraq Şəki rayonunda əgər 2010-cu ildə 13868 manat sənaye məhsulu verən 24 sənaye müəssisəsi var idisə, 2013-cü ildə artıq sənaye müəssisələrinin sayı artaraq 26 olmaqla onun istehsal gücü 22236

Zaqatala iqtisadi rayonunun ümumi məhsul buraxılışında sənayenin payı

2003-cü ildə 5 %-ə, 2012-ci ildə 5,1 %-ə, kənd təsərrüfatının payı isə müvafiq olaraq 63 faizə və 30,5 %-ə bərabər olmuşdur [12, 8].

2013-cü il ərzində rayonda 18,2 ton burulmuş ipək, 602,5 min kv.metr pambıq parça, 136,6 kv.metr ipək xalçalar, 104641 ədəd bişmiş kəlağayı, 3225 ədəd saçaqlı şərf, 2562,4 ton pambıq ipliyi, 27,1 min kv.metr güllü pambıq parça, 287,7 kv.metr bişmiş ipək parça, 31570 dəst kip şal, 1770 ədəd çitmə, 41,8 kv.metr boyanmış bez paça, 287,7 min kv.metr bişmiş ipək parça istehsal olunmuşdur. [9, 483].

"Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində həyata keçirilən tədbirlər nəticəsində iqtisadiyyatın inkişafı əhalinin rifah halının yaxşılaşmasına, orta aylıq əmək haqqının da artmasına gətirib çıxarmışdır. 2010-cu ildə orta aylıq nominal əmək haqqı 2000-ci ildəkindən 9,2 dəfə artaraq 195,2 manat təşkil etmişdi. Bununla yanaşı, Şəki-Zaqatala iqtisadi rayonunda orta aylıq nominal əmək haqqı ölkə üzrə orta səviyyədən 2010-cu ildə 1,7 dəfə az olmuşdur [11, 10].

Gətirilən faktlardan bəlli olur ki, bu illərdə dövlətin regionların sosial-iqtisadi inkişafına yardımı və qayğısı artmaqda davam etmişdir. Regionların inkişafına dair 2009-2013-cü illəri əhatə edən ikinci dövlət proqramı çərçivəsində dövlət tərəfindən bölgələrə yatırılan investisiyaların həcmi artırılaraq bu proqramın həyata keçirilməsinin 4 ili ərzində (2009-2012) regionların inkişafına 14,5 milyard manat investisiya yönəldildi. Bütövlükdə dövlət proqramının icrasına 34,7 milyard manat vəsait yönəldildi [1].

Həmin illərdə həyata keçirilən islahatlara qiymət verən Azərbaycan Respublikasının prezidenti İlham Əliyev demişdi: "2004-2008 və 2009-2013-cü illəri əhatə edən iki dövlət proqramının qəbul edilməsi, həmin proqramlara əlavə olaraq 250-ə qədər sərəncamın imzalanması və icrası bölgələrdə böyük dönüş yaratmış, regionların sosial-iqtisadi mənzərəsini tamamilə dəyişmişdir, nəticədə bölgələrdə kommunal xidmətlərin və sosial infrastrukturların keyfiyyəti yüksəlmiş, sahibkarlıq mühiti yaxşılaşmış, investisiya qoyuluşu artmış, minlərlə yeni müəssisə fəaliyyətə başlamış, 900 mini daimi olmaqla 1,2 milyondan çox iş yeri yaradılmışdır" (az res-nın tarixi, S. 52-53). Qeyd etmək lazımdır ki, yeni açılmış iş yerlərinin 80%-i regionların payına düşürdü [5, 145].





Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında fərmanında keçən dövrə əldə olunmuş nəticələr barədə deyilirdi: "Dövlət proqramlarının icra olunduğu 10 il ərzində ümumi daxili məhsul 3,2 dəfə, o cümlədən qeyri-neft sektoru 2,6 dəfə, sənaye 2,7 dəfə, kənd təsərrüfatı 1,5 dəfə, investisiyalar 6,5 dəfə, əhalinin gəlirləri 6,5 dəfə, orta aylıq əmək haqqı 5,5 dəfə artmışdır.

Bu müddətdə həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkədə 900 mini daimi olmaqla 1,2 milyondan çox yeni iş yeri, 55,6 min müəssisə yaradılmış, işsizlik 5 %-ə, yoxsulluq səviyyəsi isə 5,3 %-ə enmişdir. Dövlət proqramları çərçivəsində görülmüş genişmiqyaslı işlər regionların qarşıdakı illərdə də inkişafı üçün möhkəm zəmin yaratmışdır [10, 3].

Aparılmış tədqiqat zamanı araşdırılan dövrdə kənddə sahibkarlığın davamlı inkişafının yeni mərhələyə qədəm qoyduğu, istehsalın imkanlarının, aqrar bölmənin bütün sahələrində sahibkarlığa əsaslanan yeni mülkiyyətçilər qrupunun yarandığı qənaətinə gəlinmişdir.

- Regionların sosial-iqtisadi inkişafı yüksəldikcə istehsal sahələrində idarəetmə strukturları təkmilləşdirilir və bazar iqtisadiyyatının tələblərinə uyğunlaşdırılır:
- Kənd təsərrüfatı və regionların digər istehsal sahələri, məhsulların istehsalı sosialist təsərrüfatından fərqlim olaraq, bazarın tələb və təklifinə uyğun formalaşmaqda davam etməkdədir:
- Aparılmış ümumiləşdirmələr göstərir ki, 2010-2016-ci illərdə regionların sosial-iqtisadi inkişafı sərbəst bazar iqtisadiyyatının prinsiplərinə əsaslanmışdır.

Ölkənin sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının uğurla həyata keçirilməsi, 2014-cü ilin sənaye, 2015-ci ilin kənd təsərrüfatı ili elan edilməsi, sahibkarlığın inkişafına dövlət qayğısının artırılması və bütün bunların nəticəsi olaraq ölkə miqyasında sənaye məhəllələrinin sürətlə yaradılması, aqroparkların qurulması sonda qeyri-neft sektorunda ixracın həcminin sürətlə artmasına zəmin yaratdı. Ölkə başçısının 3 mart 2013-cü il tarixli "Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" fərmanına uyğun olaraq sahibkarlığın inkişaf etdirilməsi və biznes

mühitinin daha da yaxşılaşdırılması istiqamətində sistemli tədbirlər davam etdirildi, qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla daha mütərəqqi normativ-hüquqi baza formalaşdırıldı [5, 53].

Yekunda qeyd etmək istərdik ki, Şəki rayonu 2009-2013-cü illərdə tarixinin dinamik iqtisadi inkişaf mərhələsini yaşamışdır. Gətirilən faktlardan da bəlli olur ki, ölkədə həyata keçirilən modernləşmə kursu çərçivəsində Azərbaycanın digər bölgələrində olduğu kimi, Şəki rayonunda da istər ənənəvi, istərsə də yeni təsərrüfatçılıq sahələrinin artımı və genişlənməsi üçün əhəmiyyətli tədbirlər həyata keçirilmişdir. Azərbaycan hökumətinin strateji fəaliyyətinin məqzində dövlətin aparıcı rolu olmaqla, yerlərdə, o cümlədən Şəkidə əhalinin özünün təşəbbüskarlığını, özünüməşğulluğunu təşviq etməkdir. Bu niyyət istər bəhs olunan "Proqramın" mahiyyət prinsiplərində, istərsə də atılan əməli addımların məzmununda özünü bariz şəkildə göstərməkdədir.

**İstifadə edilmiş ədəbiyyat**


1. Azərbaycan qəzeti, 2014, 8 may
2. "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" üzrə Tədbirlər Planı // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 30 aprel 2009-cu il, №4, s.828-830
3. "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 14 aprel 2009-cu il // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 30 aprel 2009-cu il, №4, s. 734-735
4. "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın 2009-cu il ərzində icra vəziyyəti haqqında Məlumat // http://minenergy.gov.az/upload/files/Dovlet_proqramlari/Regionlar_DP/Regionlar_2009_DP.pdf
5. Azərbaycan Respublikasının tarixi (2003-2016). 2-ci cild. İlham Əliyev dövrü. Bakı, Azərbaycan tarixçiləri ictimai birliyi, 2016. 716 səh.
6. Azərbaycanın regionları. Statistik məcmuə. Bakı, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2015. 834 səh.
7. Azərbaycanın regionları. Statistik məcmuə. Bakı, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2016. 819 səh.
8. Əhmədov E. Azərbaycanın dinamik inkişafının mühüm mərhələsi: (2003-2013-cü illər) // Dövlət idarəçiliyi: Nəzəriyyə və təcrübə, 2014, №1, s. 209-218







9. Regionların sosial-iqtisadi inkişafı (2009-2013-cü illər) (statistik məcmuə) / Azərb. Resp. Dövlət Statistika Komitəsi. Bakı: [Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi], 2014. 509 s.
10. Regionların sosial-iqtisadi inkişafı. Bakı, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2014. 578 səh.
11. Şəki-Zaqatala iqtisadi rayonunun pasportu. Bakı, 2011. 79 səh.
12. Şəki-Zaqatala iqtisadi rayonunun pasportu. Bakı, 2013. 59 səh.
13. Şəki-Zaqatala iqtisadi rayonunun pasportu. Bakı, 2015, 62 səh.
14. Zeynalov İ. Azərbaycan respublikasının prezidenti İlham Əliyev və regionların sosial-iqtisadi inkişafı. "Tarix və onun problemləri" jurnalı, 2009, № 1-2. Səh. 107-113.


**Эльчин Велиев**

**ЭКОНОМИЧЕСКОЕ РАЗВИТИЕ ШЕКИНСКОГО РАЙОНА В РАМКАХ РЕАЛИЗАЦИИ «ГОСУДАРСТВЕННОЙ ПРОГРАММЫ СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ РЕГИОНОВ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ В 2009-2013 ГГ.»**

**РЕЗЮМЕ**

В представленной статье рассматриваются некоторые вопросы экономического развития Шекинского района в контексте осуществления второй по счету «Государственной программы социально-экономического развития регионов Азербайджанской Республики». Анализ указанной «Программы» позволяет заключить, что она призвана была дать импульс развитию регионов Азербайджанской Республики как посредством капиталовложений государства и частного сектора, так и поощрения социально-экономической активности самого населения. Приведенные данные свидетельствуют о возросшей интенсивности деловой активности в Шекинском районе. Темпы роста народного хозяйства заложили прочный фундамент как для устойчивого поступательного движения социально-экономических параметров указанного района, так и для дальнейшего повышения благосостояния населения.

**Elchin Veliyev**

**ECONOMIC DEVELOPMENT OF THE SHEKI REGION WITHIN THE FRAMEWORK OF THE IMPLEMENTATION OF THE "STATE PROGRAM ON THE SOCIO-ECONOMIC DEVELOPMENT OF THE REGIONS OF THE REPUBLIC OF AZERBAIJAN IN 2009-2013"**

**SUMMARY**

The presented article discusses some issues of economic development of the Sheki region in the context of the implementation of the second "State Program on the socio-economic development of the regions of the Republic of Azerbaijan". An analysis of this "Program" allows us to conclude that it is intended to give impetus to the development of the regions of the Republic of Azerbaijan, both through investment by the state and the private sector, and by encouraging the socio-economic activity of the population itself. These data indicate an increased intensity of business activity in Sheki district. The growth rate of the national economy has laid a solid foundation for both the steady progress of the socio-economic parameters of this region, and for the further improvement of the well-being of the population.